Şöbə əlavə təhsilin məzmunu və formalarının müəyyən edilməsinə, əlavə təhsil proqramlarının hazırlanmasına, əlavə təhsil işinin təşkil edilməsinə, əlavə təhsillə bağlı müqavilələrin bağlanması və sənədləşmələrin həyata keçirilməsinə, əlavə təhsilin kurikulum çərçivəsində həyata keçirilməsi və kredit sisteminin müəyyən edilməsinə, əlavə təhsildə lazımi kadrların (müəllimlərin və digər işçilərin) müəyyənləşdirilib sənədləşdirilməsinə, əlavə təhsilin əyani və distant (məsafədən) formada həyata keçirilməsinin müəyyən edilməsinə, təhsil haqqında sənədin verilməsi və fəaliyyət istiqamətlərinə uyğun olaraq İnstitutun əsasnaməsində nəzərdə tutulmuş digər vəzifələrin yerinə yetirilməsinə cavabdehdir.

Şöbə müdiri,
Ülviyyə Azad qızı Nəhmətova



Beynəlxalq əlaqələr və layihələr şöbəsi





Beynəlxalq əlaqələr və layihələr şöbəsi 2018-ci ildə yaradılmışdır. Şöbə xarici ölkələr, yerli və beynəlxalq qurumlar və donorlarla əməkdaşlıqlar çərçivəsində fəaliyyətlərin təşkilindən məsuldur. İstiqamətlər üzrə şöbə layihə təklifləri verir və təşəbbüsləri idarə edir. Layihələrin koordinasiyası, əlaqələndirilməsi və icrasına nəzarəti və digər funksiyaları həyata keçirir.

Şöbə layihə təkliflərinin hazırlanması, onların effektiv realizasiyası, əlaqələndirilməsi və idarəedilməsinin təmin edilməsinə dəstək göstərilməsi, layihələr üzrə görülən tədbirlərin müvafiq struktur bölmələrilə kordinasiya edilməsi, məlumatların təhlili, hesabatların tərtibi, layihələrin idarəetmə metodologiyasının, standartlarının müəyyən edilməsi və işlənməsinə dəstək verilməsi, tapşırılan digər fəaliyyətlərin icrasının həyata keçirilməsi vəzifələrini icra edir.



Şöbə müdiri,
Şahin Səməd oğlu Şərifov

Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsi



Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsi 2018-ci ilin sonunda yaradılmışdır.

İnstitutun fəaliyyətlərinə əsasən şöbə bir sıra funskiyaları yerinə yetirir: İnstitutun rəsmi internet səhifəsinin, elektron poçt ünvanlarının fəaliyyətinin tənzimlənməsini həyata keçirir, təşkilatda kadr işinin mütəmadi təhlili və onun inkişafı üçün təkliflərin hazırlanması, KİV-lə əlaqələr sahəsində strategiyanın qurulması, ictimaiyyətlə və KİV-lə əlaqələr sahəsində işlərin təşkili, tənzimlənməsi və təkmilləşdirilməsinin təmin edilməsini icra edir. Şöbə həmçinin, kadrların cari vəziyyətini analiz edir.

Marketinq şöbəsinin əsas vəzifələrindən biri institutun fəaliyyəti ilə bağlı zəruri yeniliklərin institutun rəsmi internet səhifəsində yerləşdirilməsini, institutun rəsmi internet səhifəsinin, sosial şəbəkələrdəki səhifələrin idarə edilməsini və təkmilləşdirilməsini təmin etmək və səhifələrdəki məlumatların aktuallığını nəzarətdə saxlamaqdır.

Şöbə müdiri,
Turqay Babək oğlu Qasımov



Ümumi şöbə





Ümumi şöbə 2018-ci ildə yaradılmışdır. Ümumi şöbə - kargüzarlığın aparılması, dəftərxana işinin təşkili, məktub və digər yazılı sənədlərin qeydiyyatı, qəbulu, göndərilməsi və arxivləşdirilməsi işini icra edir.

Dövlət hakimiyyət və idarəetmə orqanlarından, ictimai təşkilatlardan, hüquqi və fiziki şəxslərdən müəssisəyə daxil olan xidməti sənədlər Ümumi şöbədə qəbul edilir və qeydə alınır. Daxil olan sənədlərin əlaqədar struktur bölmələrə verilməsi Ümumi şöbə tərəfindən həyata keçirilir.

Rəhbərlik tərəfindən imzalanan məktub və müvafiq sənədlər şöbədə qeydiyyata alınır və aidiyyatı üzrə yönləndirilir.

Rəhbərliyin normativ aktlarının və digər tapşırıqlarının icrasına nəzarət və icranın yoxlanılması işlərinin təşkilinə Ümumi şöbənin müdiri rəhbərlik edir.

Şöbədə Kadrlar və Mühasibatlıq sektorları fəaliyyət göstərir.


Kadrlar sektorunun əsas vəzifələri təşkilatın fəaliyyət növünü, strategiyasını və məqsədlərini nəzərə alaraq tələb olunan peşə və ixtisasa malik olan kadrlarla təşkilatın təminatının, kadr siyasətinin və strategiyasının tərtibatının, kadrların seçilməsinin, onların mənəvi, işgüzar və ixtisas keyfiyyətləri əsasında yerləşdirilməsinin, struktur bölmələrdə işçilərin düzgün işləməsinə nəzarətinin və işçilərin hüquqlarının, imtiyazlarının təmin edilməsidir.

Mühasibatlıq sektorunun əsas vəzifələri maliyyə-təsərrüfat fəaliyyəti üzrə mühasibat uçotunun təşkili, maddi, əmək, maliyyə vəsaitlərin qənaətli istifadəsinə və təşkilatın əmlakının qorunmasına nəzarət, təşkilatın maliyyə strategiyasının və onun maliyyə sabitliyinin təməlinin hazırlanmasıdır.



Şöbə müdiri,
Aynur Vahid qızı Kərimova

Psixoloji Xidmət və Reabilitasiya Mərkəzi





Psixoloji Xidmət və Reabilitasiya Mərkəzi Psixologiya Elmi Tədqiqat İnstitutunun nəzdində 2018-ci ildən fəaliyyət göstərir.

Mərkəzin əsas məqsədi müraciət edən şəxslərlə psixodiaqnostika və psixokorreksiya işləri aparmaqdır. Fəaliyyət istiqamətlərinə uyğun olaraq mərkəz əməkdaşlarının əsas vəzifəsi müraciət edən hüquqi və ya fiziki şəxslərə Azərbaycan Respublikasının psixoloji yardım haqqında qanununa əsasən xidmət göstərməkdir.

XİDMƏTLƏRİMİZ:

Yetkinlərlə psixoloji iş

- Depressiya
- Həyəcan-təşviş pozuntusu
- Panik atak
- Stres
- Posttravmatik stres pozuntusu
- Obsessiv-kompulsiv pozuntu
- Cinsi meyl pozuntusu
- Yuxu pozuntusu
- Yemə pozuntusu
- Asılılıq (alkoqol, maddə, internet, oyun, qumar, telefon)
- Yetkin insanlarla fərdi psixoloji konsultasiya
- Yaşlılarla psixoloji iş
- Qorxu və fobiyalar
- İtki və yas dönəmi yaşayanlara psixoloji konsultasiya
- Kleptomaniya (oğurluq)
- Trixotillomaniya (saç yolma)
- İntihara meyl, suisidal davranış
- Abituriyentlərlə psixoloji iş, imtahan həyəcanı

Uşaqlarla psixoloji iş


- Davranış pozuntusu, kaprizlər
- Diqqət əskikliyi və hiperaktivlik pozuntusu
- Özgüvən əskikliyi
- Ünsiyyət problemləri, özünə qapanma
- Aqressivlik, şiddətə meyllilik
- Disleksiya (öyrənmə çətinliyi)
- Enurez (altını islatma)
- Enkoprez (nəcis qaçırma)
- Onikofaji (dırnaq yemə)
- Dermatofaji (dırnaq əti yemə)
- Trixotillomaniya (tük qoparma)
- Televizor, telefon asılılığı
- Bacı-qardaş qısqanclığı
- Qorxu və fobiyalar
- Yuxu problemləri
- Yaddaş zəifliyi
- Zəka geriliyi
- Səbəbsiz ağlamalar, gülmələr
- Depressiya
- Həyəcan-təşviş pozuntusu



Mərkəzin direktoru,
Seyyid-Zeynəb Miriltizam qızı Əliyeva

KOQNİTİV BİHEVİORAL TERAPİYA (CBT) MƏKTƏBİ





CBT Məktəbi 2022-ci ildə Azərbaycanda ilk dəfə Psixologiya Elmi Tədqiqat İnstitutunun nəzdində yaradılmışdır.

CBT Məktəbində Koqnitiv Davranış Terapiyası ilə bağlı ixtisasartırma kursları, seminarlar, simpoziumlar, tədqiqatlar və başqa layihələr həyata keçirilir.

Kurslarda iştirak edən psixoloq və psixiatrlar beynəlxalq, tətbiqi sertifikatlar əldə edərək və superviziyalar alaraq professional psixoloji yardım göstərməyə hazırlanırlar.

CBT Məktəbi mərkəzi New Yorkda yerləşən Albert Ellis İnstitutu və mərkəzi İstanbulda yerləşən Rasional Psixologiya İnstitutu ilə əməkdaşlıq edir. İxtisasartırma kurslarımızda iştirak edən psixoloji sağlamlıq mütəxəssislərinə sözü gedən institutların direktor və müəllim heyəti dərslər verir və öz institutlarının sertifikatları ilə təltif edirlər.

Eyni zamanda ölkənin müxtəlif psixoloji mərkəzlərində işləyən CBT mütəxəssisləri mütəmadi olaraq Psixologiya Elmi Tədqiqat İnstitutunda toplanır, birlikdə keys analizləri və konsiliumlar həyata keçirirlər.




Koqnitiv Bihevioral Terapiya
(CBT) Məktəbinin rəhbəri,
Fuad Qalib oğlu Əsədov

Elmi kitabxana



Elmi kitabxanamızda psixologiyanın bütün sahələrinə aid ayrı-ayrı müəlliflər tərəfindən yazılmış kitablar: Hüquq psixologiyası, ünsiyyət psixologiyası, siyasi psixologiya, ümumi psixologiya, klinik psixologiya, şəxsiyyət psixologiyası, uşaq psixologiyası, yeniyetmələrin psixologiyası, ailə psixologiyası, intiharın psixologiyası, praktik psixologiya, o cümlədən psixoloji testlər toplusu, psixopedaqogika, pedaqogika, fəlsəfə, iqtisadiyyat, tarix, dərs vəsaitləri, hüquq, məcəllələr, politologiya, sosiologiya, seçilmiş əsərlər, "Psixologiya" jurnalı, digər elmi jurnallar, bədii ədəbiyyat nümunələri, lüğətlər mövcuddur.

Elmi kitabxanada dissertasiya fondu yaradılmışdır. Fondda Azərbaycan və rus dillərində psixologiya üzrə fəlsəfə doktorluğu dissertasiyaları (sosial, pedaqoji, ümumi), həmçinin magistr dissertasiyaları (hüquq, klinik, sosial, ümumi) mövcuddur. Magistr və dissertantlar fondun materiallarından mütəmadi olaraq faydalanırlar.




Elmi kitabxanada insanları psixologiya sahəsində maarifləndirmək üçün video-roliklər çəkilir, elmi müzakirələr təşkil olunur.

Elmi kitabxanada Azərbaycanda ilk olan Fuad İbrahimbəyov adına Psixologiya Tarixi Muzeyi fəaliyyət göstərir.







Psixologiya Elmi Tədqiqat İnstitutu olaraq Elmi kitabxanamızda həmçinin institut əməkdaşlarının yazdıqları kitablar və çap edilən jurnallar yer alır.
































Elmi kitabxanada Azərbaycan psixologiya elminin inkişafına böyük töhfələr vermiş psixoloq

FUAD İBRAHİMBƏYOV

(29.12.1901 - 30.06.1985)

ADINA PSİXOLOGİYA TARİXİ MUZEYİ

fəaliyyət göstərir.

Muzey 27.05.2022-ci ildə yaradılmışdır.

Beynəlxalq əlaqələr və əməkdaşlıq



25-26.06.2019-cu il - Psixologiya Elmi Tədqiqat İnstitutu və Azərbaycan Dövlət Pedaqoji Universiteti arasında AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor Bəxtiyar Əliyev və Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov tərəfindən əməkdaşlıq memorandumu imzalamışdır.



01.11.2021-ci il - Türkiyənin İstanbul şəhərində Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmov və Yıldız Texnik Universitetinin rektoru prof.dr. Tamer Yılmaz arasında görüş keçirilib.

Görüşdə Yıldız Texnik Universitetinin Eğitim Fakültəsi dekanı, prof. Mehmet Engin Deniz və Türkiyənin Yıldız Texnik Universitetinin Sürekli Eğitim Mərkəzinin (SEM) rəhbəri Dr.Öğr.Üyesi.Kaan Ünlügencoğlu iştirak ediblər.

Görüşdə Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Yıldız Texnik Universiteti arasında əməkdaşlıq memorandumu imzalanmışdır.

15.10.2023-cü il - AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun baş direktoru, professor İlham Məmmədzadə və Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Rüstəmov əməkdaşlıq memorandumu imzalayıblar. Memorandum çərçivəsində birgə elmi tədqiqat işlərinin aparılması, kadr potensialının inkişaf etdirilməsi, təlimlərin keçirilməsi nəzərdə tutulmuşdur.



19.01.2023-cü il - Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Rüstəmov və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə arasında görüş keçirilib.

Görüşdə birgə əməkdaşlıq istiqamətində memorandum imzalanıb, gələcək layihələr, şəhid ailələrinə, qazilərə Psixologiya Elmi Tədqiqat İnstitutu tərəfindən psixoloji yardımın göstərilməsi barədə müzakirə aparılıb.

01.04.2023-cü il - Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d Elnur Rüstəmov, Yıldız Texnik Universitetinin Eğitim fakültəsinin dekanı Prof.Dr. Mehmet Engin Deniz, Universitetin dosenti Dr. Seyid Ahmet Satıcı və Dos.Dr.Begüm Satıcı arasında Türkiyənin Yıldız Texnik Universitetində görüş olub.
Görüşdə ixtisasartırma kurslarının həyata keçirilməsi, birgə elmi tədqiqat işlərinin aparılması ilə bağlı müzakirə aparılıb.
Sonda Prof.Dr.Mehmet Engin Deniz və f.ü.f.d. Elnur Rüstəmov əməkdaşlıq memorandumu imzalayıblar.



29-30.12.2022-ci il - Türkiyənin Rasional Psixologiya İnstitutunun direktoru Dos.Dr.Murat Artıran Psixologiya Elmi Tədqiqat İnstitutunda qonaq olub.
Görüş çərçivəsində qarşılıqlı əməkdaşlıqla bağlı memorandum imzalanıb. Dos.Dr.Murat Artıran institutun fəaliyyəti ilə yaxından tanış olub.



17-19.09.2022-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Rüstəmov və Avrasya Pozitif Psikoloji Kongresinin rəhbəri Prof. Tayfun Doğan arasında Türkiyənin Biruni Universitetində Pozitiv Psixologiya istiqamətində kadr potensialının hazırlamaq üçün əməkdaşlıq müzakirə edilmiş və memorandum imzalanmışdır.



25.12.2022-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutu ilə "Azərlotereya" ASC arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.





31.08.2022-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutunda "Məktəb psixoloqlarının ixtisasartırma və təkmilləşdirmə" təlimi çərçivəsində Türkiyədən dəvət edilmiş professor və dosent heyəti ilə görüş keçirilib.
Görüşdə Milli Məclisin Elm və təhsil komitəsinin sədri, AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarəolunması şöbəsinin müdiri Elnur Əliyev, Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmov, Türkiyənin Yıldız Texnik Universitetinin Eğitim fakültəsinin dekanı, professor Mehmet Engin Deniz iştirak edib. Qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunub.



01.04.2022-ci il - Türkiyənin Yıldız Texnik Universitetinin Eğitim fakültəsinin dekanı Prof.Dr Mehmet Engin Deniz Psixologiya Elmi Tədqiqat İnstitutunda qonaq olub.
Psixologiya Elmi Tədqiqat İnstitutunun elmi direktoru, Psixologiya elmləri doktoru, AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev, Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d Elnur Rüstəmov və Prof.Dr Mehmet Engin Denizlə görüş keçirib.
Görüşdə birgə elmi tədqiqat işlərinin aparılması, kadrların hazırlanması prosesi müzakirə olunub.



02-03.07.2022-ci il - Türkiyənin Rasional Psixologiya İnstitutunun əməkdaşı Dr.Ezgi Ildırım "Rasional Emosional & Koqnitiv Davranış Terapiyası" ixtisas artırma kursunun tədrisi ilə əlaqədar institutun qonağı olub.
Qonaq institut və onun fəaliyyəti ilə tanış olub.



24-25.06.2022-ci il - Qardaş Türkiyə Respublikasından və İrandan dəvət edilmiş mütəxəssislər Psixologiya Elmi Tədqiqat İnstitutunun təşkil etdiyi "Neyropsixologiya Konfransı"nda məruzə ilə çıxış ediblər.
İrandan dəvət edilmiş mütəxəssis Dr. Məsud Nüsrət Abadi neyropsixoloji cihazlar haqqında məlumat verib və gələcək əməkdaşlıqlar müzakirə edilib.



06.05.2022-ci il - İran İslam Respublikasından dəvət etdiyimiz mütəxəssislər "Beta One" aparatının yaradıcısı neyropsixoloq Dr. Həmidə Xəlilpur və Jalil Qolizadeh Soltani Psixologiya Elmi Tədqiqat İnstitutunda qonaq olublar. Qonaqlarla neyropsixoloji cihazların tətbiqi ilə bağlı qarşılıqlı fikir mübadiləsi aparılıb.

İnstitut tərəfindən təşkil edilmiş beynəlxalq konfranslar



“Psixologiya Zirvəsi: Problemlər, Perspektivlər və Yeni Yanaşmalar” beynəlxalq konfransı

Bakı, 25-26 iyul 2019-cu il



“Beynəlxalq Neyropsixologiya” konfransı

Bakı, 24-25 iyun 2022-ci il



Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Psixologiya Zirvəsi-2: COVID-19 pandemiyasından sonrakı dövrdə psixoloji adaptasiya və psixoloji rifah” mövzusunda beynəlxalq konfrans

Bakı, 03-04 iyul 2023-cü il

Beynəlxalq konfranslarda iştirak



IX Uluslararası TURKCESS Eğitim ve Sosyal Bilimler Kongresi
18-20 may 2023-cü il
Türkiyə, İstanbul



Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş VI Azərbaycan-Alman-Türk Kongresi və VIII Bakı beynəlxalq tibbi treninqi
21-23 aprel 2023-cü il
Azərbaycan, Astara



Beynəlxalq Psikolojik Danışma ve Rehberlik Kongresi
13 iyun 2022-ci il
Türkiyə, İstanbul



V Avrasiya Pozitif Psikoloji Kongresi
17-19 sentyabr 2022-ci il
Türkiyə, İstanbul

İnstitut tərəfindən keçirilən Respublika əhəmiyyətli konfranslar



**“Tələbə Psixoloqların
I Ümumrespublika” konfransı
23 dekabr 2018-ci il**



**“Məktəb Psixoloqlarının
I Ümumrespublika” konfransı
25 yanvar 2019-cu il**



**“İçimizdəki titrəşimlərə...səslərdən
sonsuzluğa” adlı muzterapiya konfransı
12 fevral 2019-cu il**



**Ümumdünya Sağlamlıq Gününə
həsr olunmuş “Sağlamlıq
psixologiyası” konfransı
07 aprel 2019-cu il**



“III Beynəlxalq Ailə və Uşaq Psixologiyası” konfransı
09 iyun 2019-cu il



“UŞAQLARLA GƏLƏN GƏLƏCƏK” adlı elmi-praktik konfrans
01 iyun 2019-cu il



İmadəddin Nəsiminin 650 illiyinə həsr edilmiş “Azad Ruhun Psixologiyası” adlı elmi-psixoloji konfransı
23 noyabr 2019-cu il



“Tələbə Psixoloqların II Ümumrespublika” konfransı
21 dekabr 2019-cu il



Nizami Gəncəvinin 880-ci ildönümünə həsr olunmuş “Mən fikirlər ustadıyam, fəzilətim bir ümmandır” konfransı
17 dekabr 2021-ci il



"Məktəb Psixoloqlarının II Ümumrespublika" Konfransı
23 aprel 2022-ci il



"Əbdül Əlizadə fenomeni: Azərbaycan psixologiyasının tarixi və inkişaf perspektivləri” adlı Respublika elmi-praktik konfransı
22 oktyabr 2022-ci il



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “ULU ÖNDƏR HEYDƏR ƏLİYEV və liderlik fenomeni” mövzusunda Respublika elmi-nəzəri konfransı
06 may 2023-cü il

İnstitut tərəfindən təşkil edilən beynəlxalq ixtisasartırma kursları



Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Yıldız Texnik Universitetinin birgə əməkdaşlığı çərçivəsində 2 dəfə hibrid formada həyata keçirilən 450 saatlıq "Ailə Psixologiyası" ixtisasartırma kursu.

İlk qrup 2022-ci ildə 6 ay müddətində tədris edilib.
İkinci qrup 2023-cü ildə 11 ay müddətində tədris edilib.



Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Yıldız Texnik Universitetinin birgə əməkdaşlığı çərçivəsində 2 dəfə hibrid formada həyata keçirilən 162 saatlıq "Uşaq İnkişafı və Psixologiyası" ixtisasartırma kursu.

İlk qrup 2022-ci ilin noyabrında 6 ay müddətində tədris edilib.
İkinci qrup 2022-ci ilin dekabrında 6 ay müddətində tədris edilib.



Psixologiya Elmi Tədqiqat İnstitutu, ABŞ-ın Albert Ellis İnstitutu və Türkiyənin Rasional Psixologiya İnstitutunun birgə əməkdaşlığı çərçivəsində 3 dəfə hibrid formada həyata keçirilən 120 saatlıq "Rasional Emosional & Koqnitiv Davranış Terapiyası" ixtisasart;ıma kursu.

İlk qrup 2022-ci ilin may ayında 5 ay müddətində tədris olunub.
İkinci qrup 2022-ci ilin oktyabr ayında 5 ay müddətində tədris olunub.
Üçüncü qrup 2023-cü ilin sentyabrında başlayıb. 5 ay müddəti əhatə edir.




Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Rasional Psixologiya İnstitutunun birgə əməkdaşlığı çərçivəsində hibrid formada həyata keçirilən 63 saatlıq "Uşaqlar üçün Oyun Terapiyası və Rasional Emosional Davranışçı Oyun Terapiyası" ixtisasartırma kursu.

2023-cü ildə 5 ay müddətində tədris edilib.



Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Yıldız Texnik Universitetinin birgə əməkdaşlığı çərçivəsində hibrid formada həyata keçirilən 18 saatlıq "SPSS Sosial Elmlər üçün Statistika Proqramı" kursu.

2023-cü ildə 1 ay müddətində tədris edilib.



Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Rasional Psixologiya İnstitutunun birgə əməkdaşlığı çərçivəsində onlayn formada həyata keçirilən 66 saatlıq superviziya.

2023-cü ildə 10 ay müddəti əhatə edir.

İnstitut tərəfindən təşkil edilən Respublika əhəmiyyətli kurslar

01.12.2018-ci il tarixində 72 saatlıq "Psixologiyaya Giriş" ixtisasartırma kursunun ilk modulu keçirildi.

Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun Ümumi və eksperimental psixologiya şöbəsinin müdiri, p.ü.f.d., dosent Məhərrəm Əliyev



29.06.2019-cu il tarixindən tədris olunan 48 saatlıq "Klinik psixologiya" ixtisasartırma kursu.

Kurs 07.09.2019-cu il tarixində uğurla başa çatdı.
Təlimçi: həkim, psixiatr Orxan Fərəcli



28.09.2019-cu il tarixində başlayan, 09.11.2019-cu il tarixində yekunlaşan 36 saatlıq "Koqnitiv Bihevioral Terapiya" ixtisasartırma kursu.

Təlimçi: Psixologiya Elmi-Tədqiqat İnstitutunun uzman klinik psixoloqu Aydan Xasməmmədzadə



21.10.2019-cu il tarixində başlayan 54 saatlıq "Loqopediyanın əsasları" ixtisasartırma kursu.

Təlimçi: Narınc Psixologiya Mərkəzinin Loqopediya şöbəsinin müdiri, defektoloq-loqoped Qönçə Ağayeva



02.11.2019-cu il tarixində keçirilən 24 saatlıq "Məktəb Psixoloqlarının Peşəkar İnkişafı" ixtisasartırma kursu, 29.11.2019-cu il tarixində başa çatdı.

Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun Təhsildə Psixoloji Xidmətə Dəstək Mərkəzinin direktoru, psixologiya elmləri doktoru, dos. Elxan Bəylərov






04.11.2019-cu il tarixində başlayan, 13.01.2020-ci il tarixində yekunlaşan 36 saatlıq "Uşaq psixologiyası"ixtisasartırma kursu.
Təlimçi: Narınc Psixologiya Mərkəzinin direktoru, uzman klinik psixoloq Narınc Rüstəmova



20.02.2020-ci il tarixində 30 saatlıq "Psixoloji Təkmilləşmə" ixtisasartırma kursunun növbəti canlı dərsi.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı, klinik psixoloq Nigar Muradova



Psixologiya Elmi Tədqiqat İnstitutu və Naxçıvan Müəllimlər İnstitutu birlikdə ixtisasartırma və yenidənhazırlanma çərçivəsində valideynlər, defektoloq-loqoped, psixopedaqoq və məktəb psixoloqları üçün inklüziv təhsil istiqamətində 16 – 20 iyun 2020-ci il tarixlərində "Pandemiya şəraitində sosial-psixoloji reabilitasiya: yaşam boyu inkişaf" adı altında 5 günlük (12 saatlıq) ixtisasartırma kursu keçiriblər.



21.09.2020-ci il tarixində 36 saatlıq "Peşəkar Psixoloq Təcrübə proqramı" ixtisasartırma kursunun ilk dərsi.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun İnkişaf və yaş psixologiyası şöbəsinin müdiri, psixoloq Mətanət Əliyeva



12.11.2020-ci il tarixində 30 saatlıq "Ailə Psixologiyası" ixtisasartırma kursunun növbəti canlı dərsi.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmov



16.02.2021-ci il tarixində 30 saatlıq "Klinik Psixologiya" ixtisasartırma kursunun ilk modulu.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun psixoloqu Nuranə Salmanlı

Tədbir və görüşlər

29.11.2023-cü il - "Qəhrəmanlarımız üçün yaşıl işıq" layihəsi çərçivəsində Vətən müharibəsi iştirakçıları ilə sosial görüş.
Təşkilatçılar: Psixologiya Elmi Tədqiqat İnstitutu və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Dəstək Mərkəzi



03.09.2023-cü il - Dənizkənarı Milli Parkda (Bulvar) keçirilən kitab sərgisində "Dijital dünya və uşaq tərbiyəsi" mövzusunda çıxış.
Spiker: Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmov



06.06.2023-cü il - Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko, onun xanımı və Azərbaycanın görkəmli psixoloqu Fuad İbrahimbəyovun qızı, Bakı Dövlət Universitetinin Gender və Tətbiqi Psixologiya kafedrasının müdiri, professor Rəna İbrahimbəyova Psixologiya Elmi Tədqiqat İnstitutunda qonaq olublar. Qonaqlar İnstitutun maddi texniki bazası, kadr potensialı, laboratoriyanın fəaliyyəti ilə yaxından tanış olublar və Fuad İbrahimbəyov adına Psixologiya Tarixi Muzeyini ziyarət ediblər.



20.05.2023-cü il - Astarada keçirilən "Təhsil festivalı".
Psixologiya Elmi Tədqiqat İnstitutu festivalda rəsmi şəkildə təmsil olunub.





15.05.2023-cü il - Psixologiya Elmi Tədqiqat İnstitutunda 5, 6 və 7-ci "Könüllü fəaliyyət" proqramı üzvlərinin məzuniyyət günü keçirilib.



04.05.2023-cü il - Psixologiya Elmi Tədqiqat İnstitutunda Azərbaycan Dillər Universitetinin Təhsildə sosial psixoloji xidmət ixtisasının ikinci kurs tələbələri ilə görüş keçirilib. Görüşdə Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmov, Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru, dosent Ceyhun Alıyev və institutun mütəxəssisləri iştirak ediblər.



02.05.2023-cü il - Bakı Dövlət Universitetinin SABAH qrupları-nın Psixologiya üzrə III kurs (P021S) tələbələri Psixologiya Elmi Tədqiqat İnstitutunun Beyin və Davranış Laboratoriyasında olublar. Onlar laboratoriyanın fəaliyyəti ilə yaxından tanış olublar.



13.04.2023-cü il - FHN Akademiyasının Şəxsi heyətlə iş bölməsinin rəisi polkovnik-leytenant Hüseyn Abdinov və bölmə rəisinin müavini Aynur İsmayılova Psixologiya Elmi Tədqiqat İnstitutunun qonağı olublar. Qonaqlar İnstitutun Beyin və Davranış Laboriyasının fəaliyyəti ilə yaxından tanış olublar, gələcək əməkdaşlıq imkanlarını müzakirə ediblər.

22.12.2022-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutunda Beyin və Davranış Laboratoriyasının açılış mərasimi keçirilib. Rəsmi açılış tədbirindən sonra qonaqlar laboratoriyanın fəaliyyəti ilə yaxından tanış olublar.



24.11.2022-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutunun Elmi Şurasının növbəti iclası keçirilib.
Elmi Şurada çap olunan kitablar, aparılan elmi tədqiqat işləri və həyata keçirilən tədbirlərlə bağlı müzakirə aparılıb.



04.03.2022-ci il - "Kiçik məktəblilərin ailə rəsmi analizi" və "Böyük məktəblilərin təhsildən yayınma səbəbləri" mövzusunu əhatə edən tədqiqatların təqdimatı.
Təşkilatçı: Psixologiya Elmi Tədqiqat İnstitutunun tədqiqat qrupu



26.02.2022-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutunda Xocalı faciəsinin 30-cu il dönümünə həsr edilmiş anım tədbiri keçirilib.





11.11.2021-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutunun və Narınc Psixologiya Mərkəzinin birgə əməkdaşlığı ilə Zəfər günü ilə əlaqədar tədbir keçirilib.



07.11.2021-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmov və institutun əməkdaşları Zəfər günü ilə əlaqədar II Fəxri xiyabanda Vətən müharibəsi iştirakçılarının məzarlarını ziyarət ediblər.



01.10.2021-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutunda IV Könüllü Fəaliyyət Qrupunun Məzun Günü keçirilib.
Təşkilatçı: Psixologiya Elmi Tədqiqat İnstitutu



31.07.2020-cu il - 44 günlük Vətən müharibəsi zamanı "Müasir Azərbaycan Psixoloqları" İctimai Birliyi və Psixologiya Elmi Tədqiqat İnstitutu Orduya dəstək məqsədilə "Təşəbbüs qrupu" yaradıb.
"Təşəbbüs qrupu" müharibə zamanı və müharibədən sonra 20 nəfər şəhid ailəsinə, 40 nəfər qaziyə psixoloji yardım göstərib. Hazırda da institutda bu istiqamətdə işlər davam edir.




19.02.2019-cu il - Bakı Dövlət Universitetinin "Sosial Elmlər və Psixologiya" fakültəsinin Psixologiya ixtisası üzrə təhsil alan IV kurs tələbələri ilə görüş

Simpoziumlar


31.03.2023-cü il - Microsoft Teams platforması üzərindən həyata keçirilən "Ailə Psixologiyası" adlı onlayn simpozium.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun İnkişaf və yaş psixologiyası şöbəsinin müdiri, psixoloq Mətanət Əliyeva və Əlavə təhsil və innovasiyalar şöbəsinin müdiri, psixoloq Ülviyyə Nəhmətova



24.11.2022-ci il - "Çocuk gelişimi ve psikolojisi" beynəlxalq onlayn simpozium.
Təşkilatçı: Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Yıldız Texnik Universiteti



09.04.2022-ci il - "Koqnitiv davranış terapiyası" beynəlxalq onlayn simpozium
Təşkilatçı: Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Rasional Psixologiya İnstitutu



16.06.2019-cu il - "Burn-out sindromu" mövzusuna həsr olunmuş simpozium.
Təşkilatçı: Psixologiya Elmi Tədqiqat İnstitutu



16.03.2019-cu il - "Psixologiya və İnsan Resurslarının İdarə Edilməsi" forumu.
Təşkilatçı: Psixologiya Elmi Tədqiqat İnstitutu



23.02.2019-cu il - "Qorxu və fobiyaların aradan qaldırılmasına müxtəlif psixoloji yanaşmalar" mövzusunda simpozium.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun Ümumi və eksperimental psixologiya şöbəsinin müdiri, p.ü.f.d., dosent Məhərrəm Əliyev



Seminar, vebinar və təlimlər



25.11.2023-cü il - 6 akademik saatlıq "Narahatedici düşüncələrdən xilas olmağın yolları" mövzusunda təlim.
Təlimçilər: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı, klinik psixoloq Fuad Əsədov və həkim-psixiatr Orxan Fərəcli



28.10.2023-cü il - Bakı Avrasiya Universitetində keçirilən "Niyə özgüvənli olmalıyıq" adlı təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı, klinik psixoloq Fuad Əsədov



28.10.2023-cü il - 6 saatlıq "5 addımda konfliktlərin həlli" təlimi.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı, hüquq psixoloqu Lamiyyə Hüseynova



12.10.2023-cü il - Psixologiya Elmi Tədqiqat İnstitutunda 2023-2024-cü tədris ili üçün psixologiya ixtisası üzrə əlavə təhsil (yenidənhazırlanma) proqramının canlı dərsi.
Müəllimlər: Psixologiya üzrə fəlsəfə doktoru, dosent Məhərrəm Əliyev və tibb elmləri üzrə fəlsəfə doktoru, dosent Araz Manuçehri Lalei



16.09.2023-cü il - "Şəhid övladlarının anaları ilə birgə səyahət və təlim proqramı" layihəsi.
Təşkilatçılar: Psixologiya Elmi Tədqiqat İnstitutu və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Dəstək Mərkəzi.

08.08.2023-cü il - 30 saatlıq "Uşaq Psixologiyası" ixtisasartırma təlimi.
Təşkilatçı: Psixologiya Elmi Tədqiqat İnstitutu və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi.



04.08.2023-cü il - 8-ci "Könüllü fəaliyyət" qrupuna "Ailə tipləri" mövzusunda təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı Nəzrinxanım Mehdiyeva.



27.07.2023-cü il - "Aqressiyanın korreksiyası üçün texnikalar" təlimi.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun Əlavə təhsil və innovasiyalar şöbəsinin müdiri, psixoloq Ülviyyə Nəhmətova.



29.04.2023-cü il - Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Yıldız Texnik Universitetinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən 450 saatlıq "Ailə psixologiyası" ixtisasartırma kursunun ilk canlı dərsi.
Təlimçi: Yıldız Texnik Universitetinin Eğitim fakültəsinin dekanı, Prof.Dr. Mehmet Engin Deniz.



26.04.2023-cü il - "Psixoterapiya və humanizm" mövzusunda təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı, klinik psixoloq Fuad Əsədov.






25.04.2023-cü il - “MEDİAlab” layihəsi çərçivəsində jurnalistika ixtisasında təhsil alan və jurnalistikaya marağı olan gənclər üçün “Emosional zəka” mövzusunda təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmov



08.04.2023-cü il - Microsoft Teams platforması üzərindən həyata keçirilən “Autizm spektr pozuntusuna erkən müdaxilə; problemlər və perspektivlər” mövzusunda onlayn təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun İnkişaf və yaş psixologiyası şöbəsinin elmi-işçisi, uzman-klinik psixoloq Narınc Rüstəmova.



02.04.2023-cü il - Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Rasional Psixologiya İnstitutunun birgə təşkil etdiyi 63 saatlıq “Oyun Terapiyası” ixtisasartırma kursunun canlı dərsi.
Təlimçi: Türkiyənin Rasional Psixologiya İnstitutunun direktoru, Doç.Dr.Murat Artıran




29.03.2023-cü il - Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmovun rəhbərliyi ilə institutun elmi tədqiqat qrupunun onlayn görüşü keçirilib.


05.03.2023-cü il - 24 saatlıq "Sosial Elmlər üçün Statistika Proqramı (SPSS)" kursunun canlı dərsi.
Təlimçi: Türkiyənin Yıldız Texnik Universitetinin dosenti, Dr. Seydi Ahmet Satıcı.



04.03.2023-cü il - Microsoft Teams platforması üzərindən həyata keçirilən "İmtahan stresi və onun idarə edilməsi" mövzusunda abituriyentlərlə onlayn görüş.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun İnkişaf və yaş psixologiyası şöbəsinin müdiri, psixoloq Mətanət Əliyeva.



17.02.2023-cü il - Psixologiya Elmi Tədqiqat İnstitutu və Mediasiya Şurasının birgə təşkilatçılığı ilə mediatorlara keçirilən "Ailə münasibətləri mediasiyasında psixoloqların rolu" mövzusunda təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmov.



10.12.2022-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Yıldız Texnik Universitetinin birgə təşkil etdiyi 162 saatlıq "Uşaq psixologiyası" ixtisasartırma kursunun canlı dərsi.
Təlimçi: Türkiyənin Yıldız Texnik Universitetinin dosenti, Dr. Seydi Ahmet Satıcı.



14.11.2022-ci il - Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birgə təşkil olunan "Tibb heyətinə psixoloji dəstək proqramı" layihəsinin ilk dərsi.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun klinik psixoloqu Fuad Əsədov





29.10.2022-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutu və Türkiyənin Rasional Psixologiya İnstitutunun birgə təşkil etdiyi 120 saatlıq Rasional Emosional Koqnitiv Davranış Terapiyası ixtisasartırma kursunun canlı dərsi.
Təlimçi: Rasional Psixologiya İnstitutunun direktoru, Doç.Dr.Murat Artıran.



26.10.2022-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutunda Koqnitiv Bihevioral Terapiya (CBT) məktəbi açılıb.



27.05.2022-ci il - Azərbaycan Psixologiya elminə böyük töhfələr vermiş psixoloq Fuad İbrahimbəyovla bağlı İNTERVİZİYA.
Təlimçi: Professor Rəna İbrahimbəyova
Qeyd edək ki, interviziyadan sonra institutun Elmi kitabxanasında Fuad İbrahimbəyov adına Psixologiya Tarixi Muzeyinin açılışı olmuşdur.



23.05.2022-ci il - "Uşaqların təhsildən yayınması və baxımsızlığı ilə bağlı monitorinqlərin davam etdirilməsi, təhsildən yayınan və sosial təhlükəli vəziyyətdə olan uşaqlarla fərdi profilaktik iş aparılması" barədə tədbir.
Təşkilatçılar: Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi, Psixologiya Elmi Tədqiqat İnstitutu, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Bakı şəhəri üzrə Təhsil İdarəsi.



17.04.2022-ci il - "Neurofeedback və tDCS cihazlarının tətbiqi və faydaları" adlı təlim.
Təlimçi: Koqnitiv nevrologiya üzrə f.e.d. Dr. Nadir Əlirzalı

27.02.2022-ci il - Psixologiya Elmi Tədqiqat İnstitutunda qəbul öncəsi abituriyentlərə psixoloji dəstək olmaq məqsədi ilə keçirilən "İmtahandan öncə psioxoloji hazırlıq" mövzusunda təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmov



26.11.2021-ci il - Təhsilverənlər üçün 24 saatlıq "Uşaq psixologiyasının əsasları" adlı ixtisasartırma təlimi.
Təşkilatçılar: Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Psixologiya Elmi Tədqiqat İnstitutu



15.11.2021-ci il - "Məktəb psixoloqlarının peşəkar təkmilləşmə proqramı" adlı təlim.
Təşkilatçılar: Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Məktəblinin Dostu" layihəsi və Psixologiya Elmi Tədqiqat İnstitutu




28.07.2021-ci il - Təhlükəsizlik sektorunda fəaliyyət göstərən FMG (Facility Management Group) əməkdaşları üçün "İşçilərin məhsuldarlığının artırılması" üzrə təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun mütəxəssisi, psixoloq Əli Xəlilov.






Zabitlərə keçirilən “Stresin idarə edilməsi” təlimi.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı, uzman psixoloq Nəzrin Məmmədzadə.
Təşkilatçılar: Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Psixologiya Elmi Tədqiqat İnstitutu



04.05.2021-ci il - Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin “Məktəblinin dostu” layihəsi ilə birgə keçirilən “Məktəb direktorları, pedaqoqlar və məktəb psixoloqlarının psixo-maarifləndirilməsi” layihə proqramı çərçivəsində növbəti onlayn təlim.



20.04.2021-ci il - “Gənc yaşlı”lar ilə qrup terapiyası.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun Elmi-metodiki şöbəsinin müdiri, Psixologiya üzrə fəlsəfə doktoru, dosent Höküməə Əliyeva




03.03.2021-ci il - YAP Sabunçu Rayon Təşkilatı Gənclər Birliyinin və Psixologiya Elmi Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə Zoom platforması üzərindən keçirilən “Ailə Psixologiyası” adlı onlayn vebinar.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmov


15.12.2020-cu il - Şagirdlərə distant psixoloji dəstəyin göstərilməsi məqsədilə məktəb psixoloqları üçün ixtisasartırma təlimləri.
Təşkilatçı: Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Psixologiya Elmi Tədqiqat İnstitutu




31.07.2020-ci il - "Metaforik assosiativ kartlar" mövzusunda növbəti onlayn vebinar.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun İnkişaf və yaş psixologiyası şöbəsinin müdiri, psixoloq Mətanət Əliyeva




04.06.2020-ci il - Zoom proqramı vasitəsilə baş tutan "Sxema (Şema) Terapiya" mövzusunda onlayn vebinar.
Təlimçi: Klinik psixoloq Fəxriyyə Nəsirzadə.




23.05.2020-ci il - "Psixoterapiyaya müxtəlif yanaşmalar" mövzusunda onlayn vebinar.
Təşkilatçı: Psixologiya Elmi Tədqiqat İnstitutu





21.05.2020-ci il - "Panik Pozuntunun müalicəsində zehni davranış terapiyası" mövzusunda onlayn vörkşop.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı, klinik psixoloq Mələk Allahverdiyeva



14.05.2020-ci il - "Qrup Terapiya Texnikaları" mövzusunda onlayn vörkşop.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun İnkişaf və yaş psixologiyası şöbəsinin müdiri, psixoloq Mətanət Əliyeva



19.02.2020-ci il - "Depressiyanın klinik-psixoloji mahiyyəti, yaranma səbəbləri və aradan qaldırılması yolları" təlimi.
Təlimçi: Psixologiya üzrə fəlsəfə doktoru, dosent Kamilə Kazımova.



14.02.2020-ci il - 10 saatlıq "Qısamüddətli Həll Mərkəzli Terapiya" mövzusunda masterclass.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun İnkişaf və yaş psixologiyası şöbəsinin müdiri, psixoloq Mətanət Əliyeva

28.11.2019-cu il - "Psixoaktiv maddələrdən sui-istifadə zamanı yaranan asılılığın tibbi-psixoloji aspektləri, profilaktika korreksiya, terapiya və reabilitasiyasının əsas mexanizmləri" mövzusunda seminar.
Təlimçi: psixoloq Ramin Allahverdiyev



26.10.2019-cu il - "Bədən dili və qeyri-verbal ünsiyyət mədəniyyəti" adlı seminar.
Təlimçi: Psixologiya üzrə fəlsəfə doktoru, dosent Ramil Mirzəyev



05.10.2019-cu il - Valideyn himayəsindən məhrum olmuş uşaqlara yardım məqsədilə təşkil olunan "Öyrənək və yardım edək" adlı xeyriyyə seminarı.
Təşkilatçı: Psixologiya Elmi Tədqiqat İnstitutu.



27.09.2019-cu il - "Məktəbdə psixoloji xidmətə dəstək" mövzusunda regional konfrans-seminar.
Təşkilatçılar: Yardımlı Rayon Təhsil Şöbəsi və Psixologiya Elmi Tədqiqat İnstitutu.



27.09.2019-cu il - "Uşaq tərbiyəsində mükafatlandırma və cəza" adlı praktik təlim.
Təlimçi: Narınc Psixologiya Mərkəzinin psixoloqu Gülay Şəkərxanlı





09.03.2019-cu il - "Məktəb psixoloqlarının peşəkar inkişafı" təlimi.
Təlimçilər: Psixologiya elmləri doktoru, dos. Elxan Bəylərov və p.ü.f.d., uşaq psixoloqu Aynur Bünyatova



03.03.2019-cu il - "Psixologiya və Cəmiyyətin İctimai Praktikası" mövzusunda müzakirə saatı.
Məruzəçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun İnkişaf və yaş psixologiyası şöbəsinin müdiri, p.ü.f.d., dosent Edison Quliyev



28.02.2019-cu il - "Özünü kəşf" adlı təlim.
Təlimçi: Narınc Psixologiya Mərkəzinin rəhbəri, uzman-klinik psixoloq Narınc Rüstəmova
Təşkilatçılar: Psixologiya Elmi Tədqiqat İnstitutu, Narınc Psixologiya Mərkəzi və Bakı Humanitar Kolleci



20.02.2019-cu il - "Sosial münasibətlərin psixofizioloji əsasları" mövzusunda təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı, psixoloq Fuad Əsədov



Psixologiya Elmi Tədqiqat İnstitutu və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin "Məktəblinin dostu" layihəsi çərçivəsində layihənin tətbiq olunduğu məktəblərin psixoloqları üçün təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı, psixoloq Ülviyyə Nəhmətova

19.01.2019-cu il - "İntiharın 7-li Preventiv Modeli" adlı seminar.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun Ümumi və eksperimental psixologiya şöbəsinin müdiri, p.ü.f.d., dosent Məhərrəm Əliyev



13.01.2019-cu il - İki günlük "İnnovativ Psixologiya" təlimi.
Təlimçi: Türkiyənin Yıldız Texniki Universitetinin Eğitim fakültəsinin dekanı, Prof.Dr.Mehmet Engin Deniz



15.12.2018-ci il - "Panik Pozuntular" seminarı.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun psixoloqu Fuad Əsədov



15.12.2018-ci il - "Uşaqlar niyə danışmır?" təlimi.
Təlimçi: Psixoloq Türkan Mikayıllı



15.12.2018-ci il - "Uğura gedən yolda pozitiv düşüncənin rolu" təlimi
Təlimçi: Psixologiya üzrə fəlsəfə doktoru, dosent Kamilə Kazımova





09.12.2018-ci il - "Ailə psixologiyası" mövzusunda təlim.
Təlimçi: Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, f.ü.f.d. Elnur Rüstəmov



30.11.2018-ci il - RE-BRAİN Şəxsi İnkişaf təlimi.
Təlimçi: Orxan Şahbaz.



25.11.2018-ci il - "Somatoform və diaqnostikasında çətinlik yaradan digər psixi pozuntular" təlimi.
Təlimçi: Həkim-psixiatr Orxan Fərəcli



25.11.2018-ci il - "Dislaliya və onun korreksiyası" təlimi.
Təlimçi: Defektoloq-loqoped Qönçə Ağayeva



10.11.2018-ci il - "Özünüdərk və Etnopsixologiya" təlimi.
Təlmçi: ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor Ramiz Əliyev

Könüllü fəaliyyət proqramı

Psixologiya Elmi Tədqiqat İnstitutunda 2019-cu ildən “Könüllü fəaliyyət proqramı" yaradılıb.
Psixologiya Elmi Tədqiqat İnstitutunda 2019-2023-cü illər ərzində "Könüllü fəaliyyət proqramı" qruplarına 8 dəfə könüllülər qəbul edilib. Hər qrup 6 ay müddətində institutun fəaliyyətində, simpozium, konfrans, kurs və təlimlərdə aktiv iştirak ediblər.
İndiyə qədər institutda 218 könüllü məzun olub.





I və II Könüllü fəaliyyət proqramı üzvləri



III və IV Könüllü fəaliyyət proqramı üzvləri



V Könüllü fəaliyyət proqramı üzvləri



VI Könüllü fəaliyyət proqramı üzvləri



VII Könüllü fəaliyyət proqramı üzvləri



VIII Könüllü fəaliyyət proqramı üzvləri

070 268 27 08
012 563 00 44

info@psixologiyainstitutu.az

www.psixologiyainstitutu.az
www.map.org.az
www.psixologiyajurnali.az
www.psixologiya.net
www.pcc.az

Tərtib edən: Psixologiya Elmi Tədqiqat İnstitutunun əməkdaşı,
psixoloq Nigar Əsgərova

